**2022-ci il ərzində ölkə üzrə narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələrinə dair**

**ARAYIŞ**

2022-ci ildə hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilmiş kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 10640 cinayət faktı aşkarlanmışdır. Onlardan 3441-i narkotik vasitələrin qanunsuz satışı, 6711-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 392-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 96-sı isə bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olmuşdur.

Aşkarlanmış faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunmuş 5 ton 470 kq 567,089 qr narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 131 kq 813 632 qr-nı heroin, 2 ton 086 kq 073,304 qr-nı marixuana, 295 kq 360,737 qr-nı tiryək, 42 kq 299,394 qr-nı həşiş, 261 qr-nı kokain, 148 kq 312,557 qr-nı digər narkotik vasitələr və 766 kq 446,465 qr və 524 ədəd psixotrop maddə təşkil etmişdir. Həmçinin, göstərilən dövr ərzində 38617 ədəd metadon, 80145 ədəd çətənə və xaş-xaş bitkisi, 2 kq 350,5 qr  və 21596 həb, 2048 kapsul güclü təsir edən maddə, 10 kq 037,6 qr zəhərli maddə, 77,3 qr prekursor qanunsuz dövriyyədən götürülmüşdür.

Hesabat dövründə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 557,283 hektar sahədən çəkisi 187 ton 325 kq 608,85 qr olan 404604 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq müvafiq qaydada məhv edilmişdir.

Ötən il ərzində narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 8677 nəfər cəlb edilmiş, onlardan 16-18 yaşadək 13 nəfər, 18-25 yaşadək 601 nəfər, 26-29 yaşadək 1439 nəfər, 30 yaş və ondan yuxarı isə 6624 nəfər təşkil edir. Həmin şəxslərdən 8446-sı kişi, 231-i qadın olmuşdur. Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslərdən 99 nəfəri xarici ölkə vətəndaşlarıdır.

Məsuliyyətə cəlb edilmiş 99 xarici ölkə vətəndaşından 48-i İran İslam Respublikası, 19-u Rusiya, 15-i Türkiyə, 10-u Gürcüstan, 2-si Ukrayna, 2-si Türkmənistan, 1-i Qazaxıstan, 1-i Pakistan və 1-i Maldiv vətəndaşı olmuşdur.

2022-ci il ərzində hüquq mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 276 fakt aşkar edilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 861 kq 512,489 qr narkotik vasitələr və 524 ədəd həb psixotrop maddə, habelə 38617 ədəd metadon, 2048 ədəd kapsul və 3938 həb güclü təsir edən maddə çıxarılmışdır.

Ümumilikdə, aşkar edilmiş cinayətlərin 420-si qrup halında törədilmiş və həmin faktlar üzrə qanunsuz dövriyyədən 2 ton 236 kq 004,924 qr narkotik vasitə və psixotrop maddələr, habelə 11017 ədəd metadon, 1640 ədəd və 294,7 qr güclü təsir edən maddə müsadirə edilmişdir.

Təhlil göstərir ki, 2021-ci illə müqayisədə ötən il ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 2105, qanunsuz satış ilə bağlı faktların sayı 174, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 1931, narkotik xassəli bitkilərin qanunsuz kultivasiya edilməsi ilə bağlı faktların sayı isə 13 vahid artmışdır.

Həmçinin, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 32 fakt, yabanı halda müəyyən edilmiş narkotik xassəli bitkilərin yaş kütləsi 12 ton 355 kq, məsuliyyətə cəlb edilmiş şəxslərin sayı 2165 nəfər, onlardan qadınların sayı 95 nəfər, məsuliyyətə cəlb edilmiş xarici ölkə vətəndaşlarının sayı 29 nəfər artmışdır.

Qanunsuz dövriyyədən çıxarılmış narkotiklərin çəkisi 1 ton 136 kq 556 qr, qrup halında olan cinayətlərin sayı 32 fakt, bu kateqoriyadan olan digər cinayətlərin sayı 13 fakt azalmışdır.

3518 cinayət faktı əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilmiş və onlardan 866 kq 136,835 qr və 9844 ədəd həb müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilmişdir.

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən Dövlət Proqramına uyğun olaraq, müasir informasiya texnologiyalarının imkanlarından istifadə edilməklə, narkotiklərin qanunsuz dövriyyəsinin və narkomanlığın yayılmasının maarifləndirmə yolu ilə qarşısının alınması istiqamətində məqsədyönlü işlər görülmüş, bu sahədə fəaliyyət göstərən qurumların koordinasiyası təşkil edilmiş, qarşılıqlı əməkdaşlıq nəticəsində ictimai maarifləndirmə işlərinin əhatəsi genişləndirilmişdir.

Ötən ilin 12 ayı ərzində maarifləndirmə tədbirləri çərçivəsində ümumilikdə 256 tədbir (şəhər, rayon komissiyaları ilə 59 görüş, televiziya kanallarında 4 dəyirmi masa, 116 təhsil müəssisəsində maarifləndirmə tədbiri, GİKM-nin şəhər və rayonlarında fəaliyyət göstərən nümayəndəliklərində və digər strukturlarda 62 təlim, 7 kütləvi-mədəni tədbir, idman növü üzrə 4 turnir və 4 fləşmob) təşkil edilmişdir.

2022-ci il ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 2172 vətəndaş müraciəti daxil olmuşdur ki, onların 272-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 821-i narkotik asılılıqdan müalicə, 1079-u isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və s.) bağlı olmuşdur.

Qeyd olunan müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün operativ şəkildə aidiyyəti orqanlara 1096 məktub ünvanlanmış və nəticə olaraq 821 nəfər narkotik asılılıqdan müalicə ilə əlaqədar ixtisaslaşmış tibb müəssisələrinə yönləndirilmiş, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə əlaqədar vətəndaşlar tərəfindən verilən məlumatlar əsasında 178 fakt üzrə cinayət işi açılmış, 56 məlumat üzrə keçirilmiş tədbirlər nəticəsində fakt öz təsdiqini tapmamış, 18 müraciət istiqamətində hazırda əməliyyat tədbirləri davam etdirilir.

Eyni zamanda 2021-ci illə müqayisədə "802" qaynar xətt zəng xidmətinə 1042 vətəndaş müraciəti çox daxil olmuşdur. Onlardan 71-i narkotik vasitələrin qanunsuz dövriyyəsi, 462-si könüllü müalicə, 509-u isə sifahi xarakterli müraciətlər ilə bağlı olmuşdur.

"802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılmış və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülmüş, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilmiş, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək zəruri tövsiyələr verilmişdir.

**Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu**